## HƏYAT VƏ YARADICILIĞININ ƏSAS TARİXLƏRİ

***Yunus Oğuz (Yunus İsaxan oğlu Əliyev) 22 iyul 1960-cı ildə Şirvan şəhərində anadan olmuşdur.***

| | |
|---|---|
| **1977** | Orta məktəbi bitirdikdən sonra bir il Şirvan DRES-də fəhlə işləyib |
| **1978-1979** | Bakı şəhəri 6 nömrəli texniki peşə məktəbində təhsil almışdır. |
| **1979-1981** | Sovet ordusunda xidmət etmişdir. |
| **1983** | Ordudan tərxis olunduqdan sonra Şirvan şəhər pambıqtəmizləmə zavodunda mülku müdafiə qərargahının rəisi vəzifəsində çalışmışdır;<br><br>İctimai əsaslarla Şirvan şəhər pambıqtəmizləmə zavodunda komsomol təşkilat katibi seçilmişdir; |
| **1983-1988** | Rostov Dövlət Universitetində fəlsəfə fakültəsində təhsil almışdır. |
| **1988-ci ildən** | Milli Azadlıq Hərəkatına aktiv qoşulmuşdur. |
| **1989** | Ali təhsilini bitirdikdən sonra təyinatla Azərbaycan SSR Elmlər Akademiyasının Fəlsəfə və hüquq İnstitutuna göndərilib və burada kiçik elmi işçi vəzifəsində çalışıb. |
| **1989-1991** | "Azad söz" qəzetinin, həmçinin Xüsusi bulletenlərin qeyri-leqal nəşrinə rəhbərlik edib. |
| **1990** | Azərbaycan SSR Elmlər Akademiyasının bir qrup gənc alimi ilə Xalq Azadlıq Partiyasının (XAP) yaradıb və onun sədri seçilib;<br><br>Azərbaycan Xalq Cəbhəsi Ali Məclisinə, sonra Azərbaycan Xalq Cəbhəsi İdarə Heyətinə üzv seçilib. |
| **1991-1992** | "Ordu" qəzetinin baş redaktoru vəzifəsində çalışıb. |
| **1992** | AXC idarə heyəti ləğv olunduqdan sonra AXC sədrinin müavini təyin olunub. |
| **1993** | Azərbaycan Respublikası Prezidentinin müşaviri təyin edilib. |

| | |
|---|---|
| **1994** | Azərbaycan Xalq Cəbhəsini tərk edərək Azərbaycan Bütövlüyü Uğrunda Cəmiyyəti və eyniadlı partiyanı təsis edərək partiyanın sədri seçilib. |
| **1995** | 1995-ci ildən bu günə qədər "Olaylar" İnformasiya Agentliyinin baş direktoru və eyniadlı qəzetin baş redaktoru vəzifəsində çalışır. |
| **1996** | "Qadın ulduzu" povestini yazmışdır. |
| **1997-1998** | Yunus Oğuzun təşəbbüsü ilə 1997-ci ildə ABUP və XAP birləşib və birləşmiş Xalq Azadlıq Partiyasının sədri seçilib. |
| **1998-2000** | XAP daxilində bölünmə yaşanmış, Yunus Oğuz və tərəfdarları partiyanın Vəhdət Partiyasına birləşdiyini elan etmişdir. Yunus Oğuz birləşmiş Vəhdət Partiyasının sədrinin birinci müavini seçilmişdir. |
| **2000-2023** | Vəhdət Partiyası daxilində bölünmə yaşanmış və Yunus Oğuz başçılığında qrup partiyanın adını Milli Vəhdət Partiyası olaraq dəyişdirildiyini elan edərək yeni partiyanın təsis edildiyini açıqlamışdır. Partiya qurultayında Yunus Oğuz Milli Vəhdət Partiyasının sədri seçilmişdir. 2023-cü ildə Milli Vəhdət Partiyası fəaliyyətini dayandırmışdır. |
| **2003** | 15 oktyabr 2003-cü ildə keçirilən prezident seçkilərində namizədliyi qeydə alınıb və Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin xeyrinə namizədliyini geri götürüb. |
| **2005** | Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Azərbaycan milli mətbuatının 130 illiyi münasibətilə Azərbaycan jurnalistikasının inkişafındakı xidmətlərinə görə "Tərəqqi" medalına layiq görülmüşdür. |
| **2008** | "Türkün tarixinə yeni bir baxış" kitabı Təhsil Nazirliyinin qərarı ilə ali məktəblərdə dərs vəsaiti kimi çap olunub;<br><br>"Attila" pyesi çap olunmuşdur. |

| | |
|---|---|
| **2009** | Kiyev şəhərində Ukrayna Yazıçılar Birliyi "Türkün tarixinə yeni bir baxış" kitabının təqdimat mərasimini təşkil etmişdir;<br><br>Yazıçılar Birliyinin "Bayatı" kitab mağazasında Yunus Oğuzun "Nadir şah" romanının imza günü keçirilmişdir;<br><br>Nadir şah romanı Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən "Qızıl kəlmə" mükafatının "Şans" ödülünə layiq görülüb;<br><br>"Təhmasib şah" tarixi romanı işıq üzü görüb ("Olaylar"). "Apostrof" nəşriyyatında nəfis şəkildə çap olunmuş kitabda böyük Azərbaycan hökmdarı, Səfəvilər dövlətinin banisi Şah İsmayılın oğlu I Təhmasibin həyat və fəaliyyətindən bəhs edilir.<br><br>Atatürk Mərkəzində yazıçı-türkoloq Yunus Oğuz və tədqiqatçı Bəxtiyar Tuncayın "Türkün gizli tarixi" adlı elmi-publisistik əsərinin təqdimatı keçirilib. |
| **2010** | Azərbaycanda Atatürk Mərkəzində yazıçı Yunus Oğuzun "Təhmasib şah" kitabının təqdimatı olub.<br><br>"Nadir şah", "Təhmasib şah", "Attila" və "Qədim türklər və passionarlıq nəzəriyyəsi" Türkiyə türkcəsinə çevrilib və bu ölkədə böyük tirajla nəşr olunub;<br><br>"Nadir şah" romanı ingilis dilində Londonda işıq üzü görüb;<br><br>Azərbaycan milli mətbuatının inkişafındakı xidmətlərinə görə "Əməkdar mədəniyyət işçisi" adına layiq görülüb. |
| **2011** | Təhsil Nazirliyinin qərarı ilə "Nadir şah" və "Təhmasib şah" tarixi romanları sinifdənxaric oxu ədəbiyyatı kimi sifariş edilib və çapdan çıxıb;<br><br>Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə "Qədim türklər və passionarlıq nəzəriyyəsi L. N. Qumilyovun tədqiqatlarında" adlı elmi kitabı işıq üzü görüb |

| | |
|---|---|
| | və TN-i tərəfindən dərs vəsaiti kimi çap olunub. |
| **2011-2012** | İki cildlik "Əmir Teymur – zirvəyə doğru" və "Əmir Teymur — dünyanın hakimi" tarixi romanı dərc olunub. Azərbaycan Elm və Təhsil Nazirliyi tərəfindən dərsdənkənar oxu ədəbiyyatı kimi təkrar nəşr olunub. |
| **2012** | "Qədim türklər və passionarlıq nəzəriyyəsi L. N. Qumilyovun tədqiqatlarında" adlı elmi kitabı İstanbulda nəşr olunub;<br><br>Azərbaycanın milli qəhrəmanı Mübariz İbrahimovun adını daşıyan Biləsuvar Lisey-Məktəb Kompleksində Yunus Oğuzun "Nadir şah" tarixi romanının təqdimatı və müzakirəsi keçirilib. |
| **2013** | "Qoqol Evi" muzeyində "Əmir Teymur dünyanın hakimi" kitabının təqdimatı keçirilmişdir;<br><br>"Şah arvadı və cadugər" kitabı capdan çıxıb;<br><br>Qazaxıstanın Birinci Prezidentinin Fondu, bu ölkənin Yazıçılar İttifaqı Bakıdakı Mahmud Qaşqari Fondu ilə birgə yazıçı-publisist, türkoloq alim, tarixi romanlar müəllifi Yunus Oğuzun Almatıda rus dilində çap olunmuş "Əmir Teymur" romanının təqdimatını keçirib. |
| **2014** | Dekabrın 24-də Akademik Milli Dram Teatrında yazıçı Yunus Oğuzun "Nadir şah" romanı əsasında səhnələşdirilən "Nadir şah" tamaşasının premyerası keçirildi. |
| **2015** | Yazıçı-publisist Yunus Oğuz, tərcüməçi Hüseyn Adıgözəl və Türkiyənin Bilge Kültür Sanat Yayın Dağıtım Sənaye və Ticarət LTD Şirkəti arasında anlaşma imzalanıb. Bu anlaşmaya görə türkiyə türkcəsinə çevrilən kitabların bu şirkət tərəfindən ekskuliziv hüquqları alınıb. İlkin olaraq müəllifi Yunus Oğuz olan və Hüseyn Adıgözəl tərəfindən Türkiyə türkəcisinə uyğunlaşdırılan "Təhmasib şah", eləcə də "Şah arvadı və cadugər" əsərləri bundan sonra 5846 saylı Fikir və Sənət Əsərləri Qanununa uyğun olaraq sözügedən şirkət tərəfindən nəşr edilib |

| | |
|---|---|
| | yayılacaq və həmin əsərlərin satışı təşkil olunacaq.<br><br>"Nadir şah" əsəri Akademik Milli Dram Teatrında tamaşaya qoyulub;<br><br>"Sultan Arp Arslan" tarixi romanları və "Pyeslər; Attila, Altun dəftər, Nadir şah" kitabı çapdan çıxıb;<br><br>İyulun 14-də "Pyeslər", "Sultan Arp Arslan", " Attila", " Jena Şaxa i Koldun", "Yunus Oğuz: Elmi təfəkkürlə bədii təfəkkürün vəhdəti" adlı kitabların təqdimat mərasimi Atatürk Mərkəzində baş tutub;<br><br>Azərbaycanın Özbəkistandakı səfirliyi və bu qurumun nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşəbbüsü ilə Əlişir Nəvai adına Milli Kitabxanada yazıçı-publisist, türkoloq alim, tarixi romanlar müəllifi Yunus Oğuzun Daşkənddə özbək dilində çapdan çıxan "Şah arvadı və cadugər" romanının təqdimatı keçirilib. |
| **2016** | Yunus Oğuzun böyük türk sərkərdəsi, fateh Əmir Teymurdan bəhs edən tarixi romanları Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondunun sifarişi ilə qırğız dilinə tərcümə olunub;<br><br>Türk Dünyası Araşdırmalar Vəqfi Bakı Atatürk Liseyində Yunus Oğuzla görüş keçirilib. |
| **2018** | Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun "Mədəni maarifləndirmə" proqramı çərçivəsində keçirilən "İmzalı görüş" layihəsi üzrə "Olaylar" İnformasiya Agentliyinin baş direktoru və eyniadlı qəzetin baş redaktoru, yazıçı Yunus Oğuzla görüş keçirilib;<br><br>AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda yazıçı-publisist, tarixi romanlar müəllifi Yunus Oğuzun "Ovçu" romanının müzakirəsi keçirilib;<br><br>Daşkənddəki "Mədəniyyət və mərifət" televiziya kanalında "Dünya ədəbiyyatı" |

| | |
|---|---|
| | seriyasından Yunus Oğuz haqqında veriliş efirə verilmişdir;<br><br>Yunus Oğuz "Özbəkistan-Azərbaycan" Dostluq Cəmiyyətinin fəxri fərmanı ilə təltif edilib;<br><br>Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzindəki (AMM) Heydər Əliyev muzeyində yazıçı Yunus Oğuzun özbək dilində çap edilən "Atabəy Eldəniz" romanının təqdimatı keçirilmişdir. |
| **2019** | Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutu və Türkiyə Cümhuriyyəti Dünya Avşarlar Dərnəyinin Azərbaycan şöbəsinin təşkilatçılığı ilə iyunun 19-dan 21-dək Bakı şəhərində "Nadir şah Əfşar: tarixin gedişini dəyişdirən görkəmli sərkərdə" mövzusunda keçirilən beynəlxalq elmi konfransda iştirak etmişdir;<br><br>Avqustun 4-də Tovuz şəhəri Puşkin adına orta məktəbdə millət vəkili Qənirə Paşayevanın təşəbbüsü ilə Yunus Oğuzun oxucularla görüşü keçirilmişdir.<br><br>Yunus Oğuzun "Səfəvi Şeyxi" adlı tarixi romanı işıq üzü görüb;<br><br>Azərbaycan Yazıçılar Birliyində Yunus Oğuzun "Səfəvi Şeyxi" romanının müzakirəsi keçirilib;<br><br>Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Yunus Oğuzun "Səfəvi Şeyxi" romanının təqdimatı keçirilib;<br><br>Türk tarixinin araşdırılması sahəsindəki xidmətlərinə görə Yunus Oğuz Özbəkistanın "Turan" Akademiyasının akademiki seçilib;<br><br>Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşkilatçılığı ilə yazıçı Yunus Oğuzun "Ovçu" romanı özbək dilində çap olunub;<br><br>"Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif olunub. |

| | |
|---|---|
| **2020** | Yazıçının Böyük Monqol İmperiyasının banisi Çingiz xana həsr olunmuş "Çingiz xan" adlı kitaba nəşr olunmuşdur.<br><br>Yazıçının "Əmir Teymur" romanı Özbəkistanda da Azərbaycanda olduğu qədər sevilir. Elə bunun göstəricisidir ki, Yunus Oğuzun Özbəkistanda nəşr olunan "Pravda vostoka" qəzetində növbəti müsahibəsi dərc edilib. |
| **2021** | Bakı Slavyan Universitetinin Azərbaycan filologiyası fakultəsi və Azərbaycan ədəbiyyatı kafedrasının təşkilatçılığı ilə yazıçı-publisist, tarixi romanlar müəllifi Yunus Oğuzun tələbələrlə görüşü keçirilib. |
| **2022** | Azərbaycan Yazıçılar Birliyinin Natəvan Klubunda yazıçı-publisist, tarixi romanlar müəllifi Yunus Oğuzun "Cığır" romanının təqdimat mərasimi keçirilib. Mərasimdə ölkənin elm adamları, ziyalılar, Yazıçılar Birliyinin rəhbərliyi və İdarə Heyətinin üzvləri, KİV nümayəndələri və paytaxtın 200 saylı məktəbinin bir qrup şagirdi iştirak edib;<br><br>Sumqayıt Poeziya Evində Yunus Oğuzun "Cığır" tarixi romanının təqdimat mərasimi keçirilib;<br><br>"Keçmişdən gələcəyə nə daşıyırıq-Tarix İbrətdir" adlı kitabı nəşr olunub. Kitabda müstəqillik uğrunda mübarizə illərindən günümüzə qədər olan proseslər oxucunun diqqətinə çatdırılır;<br><br>Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda Yunus Oğuzun "Uçurum" romanının təqdimatı keçirilib;<br><br>İyunun 22-də Şirvan şəhər Mərkəzi Kitabxanasının təşkilatçılığı ilə Şirvan şəhər Heydər Əliyev Mərkəzində Yunus Oğuzla görüş keçirilmişdir;<br><br>Filologiya üzrə fəlsəfə doktoru Elnarə Qaragözovanın "Yunus Oğuz həyatı və yaradıcılığı" kitabı işıq üzü görüb. "Sənətkarın elmi pasportu seriyası"nın 36-cı nəşri olan kitab Ədəbiyyat İnstitutunun Elmi Şurasının |

| | |
|---|---|
| | 23 iyun 2022-ci il tarixli (protokol № 4) qərarı ilə nəşr edilib;<br><br>Yunus Oğuzun "Nadir şah" əsərinə Hollivudun Spotlight Media Productions şirkəti tərəfindən film çəkilişi təklifi gəlmişdir. |
| **2023** | Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının fəxri doktoru adına layiq görülüb;<br><br>Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında "Azərbaycanın Bütövlüyü Uğrunda" İctimai Birliyinin həyata keçirdiyi "Vətən müharibəsinin təbliğində və vətənpərvərlikdə ictimai rolun artırılması" layihəsi çərçivəsində yazıçı-publisist Yunus Oğuzun Şuşa şəhərinin inşa edilməsinin 270 illiyinə və 44 günlük Vətən müharibəsinə ithaf olunmuş "Cığır" tarixi romanının təqdimat mərasimi keçirilib;<br><br>Sumqayıt şəhər Poeziya evində tanınmış yazıçı-publisist Yunus Oğuzun "Cığır" tarixi romanının təkrar nəşrinin təqdimatı və Milli Qəhrəman, general-mayor Polad Həşimovun ailə üzvləri ilə görüş keçirilib. |
| **2024** | Daşkənddə keçirilən "Mədəni İrs Beynəlxalq həftəsi" çərçivəsində "Yeni Özbəkistanda mədəniyyət və incəsənət sahəsində islahatlar" adlı forumda iştirak etmişdir;<br><br>Daşkənddəki Əlişir Nəvai adına Özbək Dili və Ədəbiyyatı Universitetində Yunus Oğuzun özbək dilində nəşr olunan "Əmir Teymur" tarixi romanının təqdimatı keçirilmişdir. Kitabı məşhur özbək şair və tərcüməçisi, mərhum Usman Kuçkar tərcümə etmişdir;<br><br>Müstəqil Azərbaycan Respublikasının mədəniyyətinin inkişafındakı xidmətlərini nəzərə alaraq Türkiyənin Ankara şəhərində fəaliyyət göstərən Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyası 2023-cü ilin nəticələrinə görə Akademiyanın "Türk Dünyasında İlin Ziyalısı" Beynəlxalq Diplomu və "Qızıl Ulduz" Medalı ilə təltif edilmişdir;<br><br>Yazıçı-publisist Yunus Oğuzun "Cığır" tarixi romanının aktuallığı, gənclər arasında |

| | |
|---|---|
| | vətənpərvərliyin və 44 günlük Vətən müharibəsinin təbliği, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpasının inkişafındakı əhəmiyyəti nəzərə alınaraq Dövlət mükafatına təqdim edilməsi üçün Azərbaycan Respublikasının Elm, Mədəniyyət və Ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasına namizədliyi irəli sürülüb;<br><br>Yazıçı-publisist Yunus Oğuz AzerGoldun təşəbbüsü ilə Daşkəsənin Quşçu kəndində açılan "Pulsuz oxu" kitab köşkünə öz tarixi romanlarını hədiyyə etmişdir;<br><br>Yunus Oğuz Xankəndində Qarabağ Universitetinin qonağı olmuşdur. Yazıçı özünün müxtəlif illər ərzində qələmə aldığı və ayrı-ayrı vaxtlarda çap olunan 100-dən çox kitabını Qarabağ Universitetinə hədiyyə edib. Yunus Oğuz həmçinin Azərbaycan Yazıçılar Birliyinin (AYB) sədri Anarın və AYB sədr müavini Rəşad Məcidin kitablarını da universitetə təqdim edib. Bu addım həm tələbələrin ədəbiyyatla daha yaxından tanış olmasına, həm də Qarabağ Universitetinin kitabxanasının zənginləşməsinə böyük töhfədir |
| **2025** | Yunus Oğuzun dünya fatehlərindən biri olan Çingiz xan haqqında romanı Türkiyə türkcəsində çapdan çıxıb. "Çingiz xan" (Cengiz han) romanında müəllif hökmdarın portretini savaşçı, dövlət qurucusu, hər nə qədər öldürsə də yaşatmağı və qurmağı sevən biri kimi çızır. Roman Türkiyədə Bilge Tonyukuk Yayınları Yayın Evində çapdan çıxıb;<br><br>Yunus Oğuzun özbək dilində kitabı işıq üzü görüb. Nəfis şəkildə tərtib olunan "Çinqizxon və Jaloliddin" adlı kitab Özbəkistanın "BAYOZ" MMC şirkəti tərəfindən çap edilib;<br><br>Yunus Oğuzun 65 illik yubileyi münasibətilə Türkiyənin İLESAM nəşriyyatı müəllifin iki romanını – "Ovçu" ("Avcı") və "Atabəy və Xaşxaşilər" ("Atabey və Haşhaşiler")i Türkiyə türkcəsində çap edib. |